**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEVİNC İSMAYIL qızı VƏLİYEVA**

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MULTİKULTURALİZM

**İxtisas: 6215.01 – Təsviri sənət**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya AMEA Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Ərtegin Salamzadə**
AMEA-nın müxbir üzvü, professor

**Rəsmi opponentlər:** **Rəna Azər qızı Məmmədova**
AMEA-nın müxbir üzvü, professor

**Aslan Əkbər oğlu Xəlilov**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2018-ci il saat $12^{00}$–da Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun nəzdində yaradılmış FD.01.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı, Hüseyn Cavid prospekti 115, AMEA Memarlıq və İncəsənət İnstitutunun iclas zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" __________ 2018 - ci il tarixində göndərilmişdir.

**FD.01.191 Dissertasiya**
**Şurasının elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru, dosent:** **X.A.Zeynalov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Yaşadığımız dövrdə multikulturalizm cəmiyyətimizin həyat tərzinə çevrilmişdir. Multikulturalizm dedikdə müxtəlif millətləri və dini inancları təmsil edən xalqların bir cəmiyyətdə yaşaması, bir-birinin milli adət və ənənələrinə hörmətlə yanaşması başa düşülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 avqust 2011-ci ildə müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimindəki çıxışında demişdir: "Multikulturalizm nisbətən yeni anlayışdır. Mahiyyətcə bu, müxtəlif mədəniyyət və dinlərə mənsub insanların birlikdə yaşaması deməkdir... Bu, sadəcə şüar deyil... Bu, bizim həyat tərzimizdir. Bu, bizim dünyagörüşümüzdür. Biz belə yaşayırıq və belə yaşamaqla özümüzə, bölgəyə və dünyaya sübut edirik ki, multikulturalizm mövcuddur". [1] Əlbəttə, bu sözlər böyük mənəvi çəkiyə malikdir. Məhz buna görə də müasir Azərbaycan cəmiyyətində multikulturalizm həyat tərzinə çevrilmişdir.

Artıq 26 ildən çoxdur ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir. Bu müddət ərzində çox şey dəyişmiş, ölkəmiz qüvvətlənmiş, onun iqtisadi və hərbi qüdrəti dəfələrlə artmışdır. Bütün bunlar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu güncü Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq ideologiyasının bəhrəsidir. Qeyd etmək lazımdır ki, multikulturalizm də məhz azərbaycançılıq ideologiyasından qaynaqlanır. Ölkə Prezidentinin fərmanı ilə 2016-cı il Azərbaycanda multikulturalizm ili elan edilmişdi. 2017-ci il isə islam həmrəyliyi ili elan olundu. Bu, öz növbəsində multikulturalizm siyasətinin növbəti inkişaf mərhələsi kimi dəyərləndirilir.

Bədii mədəniyyətin digər sahələri ilə yanaşı, multikulturalizm təzahürləri təsviri sənətdə də geniş yer tutur. Azərbaycanın rəssam və heykəltəraşları özündə multikulturalizm ideyaları ehtiva edən yüzlərlə sənət nümunəsi yaratmışlar. Hazırkı tədqiqat işində onların ən dəyərli, ən qiymətli nümunələri toplanmış və bədii təhlilə cəlb edilmişdir. Maraqlıdır ki, bu əsərlərin heç də hamısı müstəqillik illərinə aid deyil. Əksinə, tədqiqat işində nəzərdən keçirilən əsərlərin böyük əksəriyyəti ötən əsrin ikinci yarısına aiddir. O dövrdə multikulturalizm termini işlənməsə də, rəssam və heykəltəraşların dünyagörüşündə, onların yaradıcılığında özünü aydın büruzə verirdi. Prezident İlham Əliyev demişdir: "Multikulturalizm Azərbaycanda

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında. Bakı, "RS Poliqraf" MMC-nin mətbəəsi, 2017, 527 s.

əsrlər boyu mövcud olub. Sadəcə, ötən dövrlərdə biz bu ifadə ilə tanış deyildik”. [1] Məhz buna görə də özündə multikultural dəyərlər əks etdirən tarixi sənət nümunələri, bu gün bizim üçün vaxtilə olduğundan daha böyük əhəmiyyət kəsb edir.

**Mövzunun aktuallığı.** Söylənildiyi kimi, təsviri sənətdə multikulturalizm mövzusu aktuallığı ilə seçilir. Bunun əsas səbəblərindən biri də ölkəmizdə multikulturalizm siyasətinin dövlət siyasəti olmasıdır. Eyni zamanda Azərbaycan xalqının milli mentaliteti, onun tolerantlığı, dini dözümlülüyü multikultural dəyərlərin inkişafına təkan verir.

Qeyd olunduğu kimi, ötən əsrin ortalarında və ikinci yarısında bir çox Azərbaycan rəssamı öz yaradıcılığında multikultural dəyərləri əks etdirmişdir. Əlbəttə, bu rəssamların yaradıcılığı hələ o dövrdə yetərincə tədqiq edilib. Lakin onlara verilən qiymət həmin dövrün tələblərini, dünyagörüşünü əks etdirirdi. Bu qiymətdə multikulturalizm dəyərləri bir göstəici, meyar kimi mövcud olmayıb. Yalnız yaşadığımız dövrdə, ölkəmizin öz müstəqilliyini bərpa etdiyi dövrdə klassik irsə münasibətdə əsaslı dəyişikliklər baş vermiş, vaxtilə yaradılan qiymətli sənət inciləri müasirlik müstəvisində yenidən qiymətləndirilməyə başlamışdır. Təbii ki, bu sırada klassik təsviri sənət nümunələri də öncül yerlərdən birini tutur. Bu gün M.Abdullayev, B.Mirzəzadə, T.Tağıyev, V.Səmədova, E.Şahtaxtinskaya, O.Sadıqzadə və bir çox başqalarının yaradıcılığı olduqca aktual təsir bağışlayır. Zənnimizcə, bunun əsas səbəblərindən biri də bu klassik rəssamların yaradıcılığının həm də müasir görünməsidir. Başqa sözlə, vaxtilə yaradılan sənət inciləri bu gün də öz aktuallığını itirməyib və zəmanəmizdə daim diqqət mərkəzindədir. Bütün bunlar klassik irsə yeni fikir, yeni münasibət nümayiş etdirmək zərurətini ortaya qoyur. Təbii ki, multikulturalizmin dövlət siyasəti olduğu müasir dövrdə həmin irsin məhz multikultural dəyərlər müstəvisində işıqlandırılması daha düzgün və məqsədəuyğun təsir bağışlayır. Bu isə, öz növbəsində, mövzunun aktuallığını bir daha təsdiq edir.

**Mövzunun işlənmə dərəcəsi.** Ölkəmizdə multikulturalizm mərkəzi fəaliyyət göstərir. Mərkəzin əməkdaşları multikulturalizm problemlərini ən müxtəlif aspektlərdə araşdırırlar. Mərkəz tərəfindən “Multikulturalizm” jurnalı nəşr edilir. 2017-ci ildə “Azərbaycan multikulturalizmi” adlı ali

[1]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında. Bakı, “RS Poliqraf” MMC-nin mətbəəsi, 2017, 527, s. 268.

məktəblər üçün dərslik hazırlanaraq çap edilmişdir. [1] Dərslikdə digər mövzularla yanaşı, təsviri sənətdə multikulturalizm mövzusu da işıqlandırılır.

Multikulturalizm mövzusu aktual olduğundan humanitar elmlərin müxtəlif sahələrində kifayət qədər ətraflı öyrənilmişdir. Ədəbiyyat, tarix, fəlsəfə, sosiologiya və digər sahələrdə aparılmış tədqiqatlar müəyyən mənada təsviri sənət problemlərini də əhatə edir. Misal üçün, Nizami irsinin araşdırılması müəyyən qədər Təbriz miniatür məktəbinin üzərinə işıq salır ki, bu da artıq sənətşünaslıqla əlaqədardır. AMEA Fəlsəfə İnstitutunda Multikulturalizm şöbəsi yaradılmışdır. Belə bir şöbənin mövcudluğu multikulturalizm problemlərini müxtəlif kontekstlərdə, o cümlədən bədii mədəniyyət sahəsində öyrənməyə imkan yaradır. Ümumiyyətlə, AMEA-nın müxtəlif strukturlarında bu mövzu ilə bağlı müntəzəm surətdə tədqiqatlar aparılır. Belə ki, 2017-ci ilin oktyabrında AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin birgə təşkilatçılığı ilə 2017-ci ilin MDB məkanında "Ailə ili" elan olunması ilə əlaqədar "Ədəbiyyatda və incəsənətdə multikulturalizm və tolerantlıq" mövzusunda elmi sessiya keçirilmişdir. [2] Həmçinin AMEA Ədəbiyyat İnstitutu və Moskva Dövlət Pedaqoji Universitetinin (MDPU) Stavropol filialı tərəfindən "Multikulturalizm: meyillər və reallıqlar" kitabı işıq üzü görmüşdür ki, burada mövzu ilə bağlı bəzi problemlərə aydınlıq gətirilir. [3]

Akademik İ.Həbibbəylinin "Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr", [4] müxbir üzv Ə.Salamzadənin "Azərbaycan təsviri sənətində multikulturalizm", [5] fəlsəfə üzrə elmlər doktoru İ.Məmmədzadənin "Multikulturalizm fəlsəfəsi" araşdırmalarında nəzərdən keçirilən mövzu müxtəlif aspektlərdə öz həllini tapır. Həmçinin N.Ələsgərovanın Azərbaycan rəssamlarının yaradıcılığında xarici mövzunun təfsiri problemləri,[6] N.Həbibovanın "T.Salahovun əsərlərində yaradıcı fərdiliyin forma-

---

[1]Azərbaycan multikulturalizmi (Ali məktəblər üçün dərslik). Bakı, "Mütərcim" NPM, 2017, 416 s.

[2] http://www.science.gov.az/news/open/6689

[3] http://multiculturalism.preslib.az/az_events-IMWVRQLvY4.html

[4] Həbibbəyli İ. Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr // "Azərbaycan" qəzeti, 10 yanvar 2017-ci il, s. 4.

[5] Bax: Azərbaycan multikulturalizmi (Ali məktəblər üçün dərslik). Bakı, "Mütərcim" NPM, 2017, 416 s.

[6]Алескерова Н.Р. Проблемы интерпретации зарубежной тематики в творчестве азербайджанских художников (автореферат на соискание ученой

laşması”, [1] “Azərbaycanın xalq rəssamı N.Əbdürrəhmanovun yaradıcılığında xarici motivlər”, [2] F.Mirbağırzadənin “Nizami Gəncəvi və incəsənət əsərlərində rəmzlərin əksi”, [3] A.Məmmədovanın “Multikulturalizmin Azərbaycan modeli: tarix, mədəniyyət və incəsənət”, [4] İ.Rəsulinin “Mədəniyyətlərarası dialoq və millilik meyarları”, [5] N.Muradovanın “Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri” [6] və başqa tədqiqatlarda problem müəyyən qədər tədqiq edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan təsviri sənətində multikulturalizmin təzahür formalarıdır. Bu məqsədlə ötən əsrin ortalarından müasir dövrə qədər Azərbaycan rəngkarlığı, heykəltəraşlığı və qrafikası təhlil edilmiş, bu sahələrdə yaradılmış bir çox əsərin multikultural məzmuna malik olması fikri əsaslandırılmışdır.

Tədqiqatın predmetini müxtəlif rəssam və heykəltəraşların yaradıcılığı, onların əsərləri təşkil edir. Tədqiqatda çoxlu sayda əsər təhlil edilmiş, onların müulikultural dəyərləri əks etməsi vurğulanmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan təsviri sənətində multikulturalizm təzahürlərini aşkar etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən olunub:

- Azərbaycan təsviri sənətində multikulturalizm ənənələrini bədii-tarixi müstəvidə işıqlandırmaq;
- Rəngkarlıq, heykəltəraşlıq və qrafikada sahəsində yaradılmış multikultural məzmunlu əsərləri aşkar və təhlil etmək;

---

степени доктора философии в области искусствоведения. Баку, типография «МБМ», 2012, 26 с.

[1] Габибова Н.Н. Становление творческой индивидуальности в работах Таира Салахова // Международная академия архитектуры стран востока, сборник № 2 (10), Баку, «Аврора», 2015, с. 159-164.

[2]Габибова Н,Н. Зарубежные мотивы в творчестве народного художника Азербайджана Н.Абдуррахманова // Международная академия архитектуры стран востока, сборник № 2 (14), Баку, «Аврора», 2017, с. 152-154.

[3]Мир-Багирзаде Ф. Низами Гянджеви и отражение символического в произведениях искусства // Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) s. 29-35.

[4] Məmmədova A. Multikulturalizmin Azərbaycan modeli: tarix, mədəniyyət və incəsənət // Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) s. 80-84.

[5] Rəsuli İ. Mədəniyyətlərarası dialoq və millilik meyarları // Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) s. 85-90.

[6] Muradova N. Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri // Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) s. 40-47.

- Ayrı-ayrı rəssamların əsərlərindəki multikultural məzmunu müəyyən etmək;

- Multikulturalizm və xarici tematikanın qarşılıqlı münasibətlərini öyrənmək;

- Klassik incəsənətə aid olan, ötən əsrin ortalarında və ikinci yarısında yaradılmış əsərləri müasirlik müstəvisində işıqlandırmaq və yenidən qiymətləndirmək;

- Azərbaycan təsviri sənətində özünü büruzə verən multikultural məzmunu sistemləşdirmək.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını tarixi-müqayisəli metod və strukturun təsviri sənətin növlərinə görə bölünməsi prinsipi təşkil edir. Belə ki, tədqiqatda ardıcıl olaraq XX əsrin ortalarından tutmuş müasir dövrədək olan bədii proseslər bu və ya digər rəssamın yaradıcılığı nümunəsində nəzərdən keçirilir. Struktura gəlincə, qeyd olunduğu kimi, burada fəsil bölgüsü təsviri sənətin üç növünə istinad edir. Bunlar rəngkarlıq, qrafika və heykəltəraşlıqdır. Təbii ki, hər bir növdə tarixi ardıcıllıq təkrar olunur, yəni hər bir fəsildə ötən əsrin ortalarından dövrümüzədək olan yaradıcılıq nümunələri tədqiqata cəlb edilir.

Bunu da vurğulamaq vacibdir ki, tədqiqatın tarixi-müqayisəli metodu bütün fəsillər üzrə eyni dövrü əhatə etmir. Doğrudur, dissertasiyanın ümumi müddəti XX əsrin ortalarından müasir dövrədək olan zamanı əhatə edir. Lakin təsviri sənətin növləri daxilində bu zaman nisbəti bir qədər dəyişilir. Misal üçün, rəngkarlıq və qrafikada ötən əsr xeyli əhatəli, müasir mərhələ isə nisbətən məhdud şəkildə nəzərdən keçirilir. Bunun əsas səbəbi ötən əsrdə multikultural nümunələrin rəssamlıqda daha geniş yayılması ilə izah olunur. Həmin dövrdə multikulturalizm ifadəsi dilimizdə işlədilmədiyi halda təsviri sənətdə mahiyyətcə multikultural dəyərlərə istinad edən çoxlu sayda əsər görmək mümkündür. Müasir dövrdə multikulturalizm ifadəsi geniş yayılmış və müxtəlif məzmunlu əsərlərlə təmsil olunmuşdur.

**Tədqiqatın sərhədləri** ötən əsrin ortalarından (40-cı illərin sonu – 50-ci illərin əvvəllərindən) başlayaraq müasir dövrə qədər davam edir. Ümumilikdə dissertasiya işində Azərbaycan təsviri sənətinin təxminən 70 illik bir dövrü əhatə olunur.

**Tədqiqatın elmi yeniliyi** iki əsas formada özünü büruzə verir. İlk olaraq onu vurğulamaq vacibdir ki, problemlə bağlı müxtəlif tədqiqatlar, məqalələr işıq üzü gördüyü halda məsələyə bu vaxtadək sistemli şəkildə münasibət bildirilməyib. Hazırkı dissertasiya Azərbaycan təsviri sənətində multikulturalizm təzahürləri mövzusunda yazılmış ilk irihəcmli elmi-tədqiqat əsəridir.

İkincisi, dissertasiyada özünü büruzə verən başqa bir elmi yenilik artıq bəlli olan və sənətşünaslıqda kifayət qədər öz təhlilini tapan sənət əsərlərinin yeni kontekstdə - multikulturalizm kontekstində dəyərləndirilməsidir. Dissertasiyada klassik nəsli təmsil edən rəssamlardan – M.Abdullayevin, T.Salahovun, T.Tağıyevin, K.Kazımzadənin, C.Camalın, S.Salamzadənin, N.Əbdürəhmanovun, N.Qasımovun, O.Sadıqzadənin, E.Rzaquliyevin, X.Səfərovanın və başqalarının xarici tematika üzrə işlədikləri və ictimaiyyətə yaxşı bəlli olan əsərləri multikulturalizm müstəvisində tədqiq edilmiş, onların məzmununda əvvəllər diqqətdən kənarda qalan yeni nüanslar aşkarlanmış və əsaslandırılmışdır.

Qeyd olunan bu cəhətləri aşağıdakı müddəalar formasında ifadə edə bilərik:

- Dissertasiyada ilk dəfə olaraq Azərbaycan təsviri sənətində multikulturalizm sistemli, ardıcıl surətdə və irimiqyaslı elmi-tədqiqat əsəri olaraq nəzərdən keçirilir;
- Dissertasiyada multikulturalizm xüsusiyyətləri hələ bu ifadənin mövcud olmadığı dövrdə - ötən əsrin ortalarında və ikinci yarıcında yaradılmış əsərlərə də şamil edilmişdir;
- Multikulturalizm tematikası təsviri sənətin hər üç növünü eyni dərəcədə əhatə edir;
- Təhlil edilən əsərlər həm də müasirlik və milli özünəməxsusluq müstəvisində nəzərdən keçirilir;
- Son yarımfəsildə Azərbaycan heykəltəraşlarının xarici ölkələrdə nümayiş etdirilən əsərlərindən danışılır ki, bu da multikulturalizmin prinsipcə yeni təzahür formasıdır.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Dissertasiyada XX əsrin ikinci yarısı – XXI əsr Azərbaycan incəsənətindən bəhs olunur. Bu baxımdan ondan müasir incəsənət tarixini əks etdirən dərslik kimi istifadə etmək olar. Bu da qeyd edilməlidir ki, hazırda dünyanın 17 universitetində multikulturalizm fənni tədris olunur. Dissertasiya bu fənn üçün də yararlıdır. Deməli ondan həm mədəniyyət və incəsənət profilli ali təhsil müəssisələrində "Təsviri sənət tarixi" fənni üçün, həm də ixtisasdan asılı olmayaraq digər universitetlərdə "Multikulturalizm" fənni üçün dərslik kimi istifadə etmək olar.

Dissertasiya həm də təsviri sənət, kulturologiya, estetika və s. sahələrdə elmi-tədqiqat işi aparan tədqiqatçılar üçün elmi mənbə rolunu ifa edə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika"

şöbəsində müzakirə edilmişdir. Onun ayrı-ayrı müddəaları və nəticələri müəllifin nəşr etdirdiyi yeddi məqalədə öz əksini tapıb. İddiaçı həmçinin iki beynəlxalq və bir neçə respublika elmi konfranslarında mövzu üzrə məruzə etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın məzmunu 150 səhifəlik kompüter yığımında öz əksini tapır. Dissertasiyaya əlavədə mövzunu əks etdirən illüstrasiyalar toplanmışdır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqat işinin məqsəd və vəzifələri, onun öyrənilmə dərəcəsi, elmi yeniliyi, metodoloji əsasları, sərhədləri, həmçinin nəzəri-praktiki əhəmiyyəti qeyd olunmuş, aprobasiyası, quruluşu və ümumi həcmi haqda məlumatlar verilmişdir.

Dissertasiyanın **I – FƏSLİ - Rəngkarlıqda xarici tematika və onun multikultural xarakteri** adlanır. Bu fəsildə incəsənətdə multikultural məzmun təsviri sənətin üç əsas növündən biri olan rəngkarlıq nümunəsində tədqiqata cəlb edilib. I – fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **50-70-ci illərdə xarici tematikanın bədii təsvir metodları** adlanır və həmin dövrdə yaradılmış müxtəlif sənət nümunələrinin təhlilini əhatə edir.

Azərbaycan rəssamlarının yaradıcılığında xarici tematika mühüm yer tutmuşdur. Bu cəhət ötən əsrin 50-70-ci illərində özünü xüsusilə aydın göstərmişdir. Həmin dövrdə tez-tez xarici ölkələrə yaradıcılıq ezamiyyətlərinə yollanan rəssamlarımız oradan zəngin təəssüratlarla geri dönür, eskiz və etüdlər əsasında, bəzənsə yadında saxladığı, hafizəsinə köçürdüyü maraqlı səhnələr əsasında unudulmaz əsərlər işləyirdilər.

Azərbaycan incəsənətində xarici tematikanın multikultural müstəvidə əks olunduğu ən zəngin və maraqlı əsərlər seriyasının yaradıcılarından biri SSRİ Xalq Rəssamı Mikayıl Abdullayevdir. M.Abdullayev öz rəngarəng yaradıcılığı ilə XX əsr Azərbaycan təsviri sənətini inkişaf etdirən rəssamlardandır. [1] Zəngin kolorit duyumu, incə, həzin lirika onun tablolarının əsas cəhətlərindəndir. Rəssam mənzərə, portret, məişət və digər janrlarda gözəl əsərlər yaratmışdır. [2]

---

[1] Габибов Н.Д. Изобразительное искусство Азербайджанской ССР. Баку, Азернешр, 1959, 20 с.

[2] Попова Э. Микаил Абдуллаев. Москва, Советский художник, 1973.

M.Abdullayev xarici tematika sahəsində də məhsuldar fəaliyyət göstərib. Görkəmli rəssam dünyanın bir çox ölkələrində - Fransa, İtaliya, Almaniya, Çexoslovakiya, Hindistan və başqalarında yaradıcılıq ezamiyyətlərində olmuşdur. Lakin M.Abdullayevin xarici tematikasında məhz Hindistan seriyası mühüm yer tutur. Bu, həm də rəssamın multikultural təfəkkürünün məhz həmin seriyada özünü daha dolğun göstərməsi ilə əlaqədardır.

Rəssamın Hindistan seriyasına daxil olan erkən dövr əsərlərində (1957-58-ci illər) portret əhvali-ruhiyyəsi güclüdür. Bu əsərlər bilavasitə ya portret, ya da portret səciyyəli tematik kompozisiya kimi işlənmişdir. Bu baxımdan rəssamın “Ana qayğısı” (1957) əsərini qeyd etmək yerinə düşər. Tabloda klassik süjet – körpəsini əmizdirən gənc ana təsvir edilib. Lakin rəssam bu süjetə hind həyat tərzinə xas olan ştrixlər daxil edib ki, bu da nisbətən sadə kompozisiyanı bir qədər zənginləşdirir. Rəssam ilk öncə məhz körpəsini sevən şəfqətli ana obrazı yaratmağa cəhd göstərib. Eyni zamanda bu gənc ananın simasında o, hind qadınlarına xas cəhətləri əks etdirə bilmişdir.

Xarici tematika Azərbaycan incəsənətinin ən tanınmış simalarından olan, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, xalq rəssamı Tahir Salahovun yaradıcılığında da dərin iz buraxmışdır. Tahir Salahov dünya miqyasında tanınan və sevilən rəssamlardandır. [1]

T.Salahovun xarici tematikası M.Abdullayevinkindən fərqlidir. Bu iki rəssamın xarici tematikasını müqayisəli tərzdə nəzərdən keçirməkdə əsas məqsəd həm iki tanınmış sənətkarın yaradıcılığını təhlil etmək, həm də onların daha çox fərqli xarakter daşıyan bədii-üslubi xüsusiyyətlərinə aydınlıq gətirməkdir. M.Abdullayevin Hindistan seriyası rəngarəng milli məzmun daşıyan, özündə multikulturalizm təmayülləri təzahür etdirən xarici tematika nümunəsidir. T.Salahovun xarici tematikası isə sanki klassik xarakter daşıyır və yaradıcılığının hələ erkən mərhələsində formalaşan “sərt üslub”un təsirinə məruz qalmışdır. [2] M.Abdullayev daha çox məişət-tematik lövhələrə meyl etdiyi halda T.Salahovda bunun əksini görürük. Rəssam sadə adamlar ilə yanaşı, şəhər mənzərələrini, xüsusən məşhur tarixi-memarlıq abidələrini əks etdirməyə meyllidir. M.Abdullayev Hindistan kimi qədim tarixi-memarlıq abidələri ilə zəngin olan bir diyarda demək olar ki, həmin mövzuda əsər işləmədiyi halda T.Salahov həm tarixi

[1] Осмоловский Ю.Э. Таир Салахов. Москва, «Советский художник», 1972.
[2] https://www.tretyakovgallery.ru/ru/calendar/exhibitions/exhibitions6105/

abidələri ("Müqəddəs Fransis Assiz məbədi"), həm də yeni dövrdə tikilmiş binaları ("Berqamo meydanı") eyni həvəs və üslubda əks etdirir. [1]

Ötən əsrin 60-70-ci illərində yaradıcılığında müsəlman ölkələrinin həyatını əks etdirən rəssamlardan biri Tağı Tağıyev olmuşdur. [2] Rəssamın miras qoyub getdiyi zəngin bədii irsin xeyli hissəsini xarici ölkələr seriyası təşkil edir. Bu seriyanın müəyyən qismi müsəlman ölkələrinə aiddir. Maraqlıdır ki, Tağı Tağıyevin yaradıcılığında islam dünyası mövzusu əsasən Afrika ölkələri timsalında öz əksini tapır. Tağı Tağıyev həm Şimali Afrikanın ərəb ölkələrində, həm də ekvatorial Afrikada yaradıcılıq ezamiyyətlərində olmuş azsaylı rəssamlarımızdandır. "1961-ci ildə Tağı Tağıyev Qərbi Afrika ölkələrinə yaradıcılıq ezamiyyətinə gedir. O, Mərakeş, Qvineya, Seneqal, Fil Dişi Sahilinə səfər edir". [3] Bu ezamiyyətlərin təsiri altında rəssam yağlı boya ilə bir sıra tablolar yaratmışdır ki, onlar bu gün XX əsr Azərbaycan təsviri sənətinin layiqli nümunələri kimi dəyərləndirilir.

Xarici ölkələr tematikasına müraciət edən rəssamlardan biri də istedadlı fırça ustası Salam Salamzadədir. Ərəb seriyası onun yaradıcılığında daha geniş təmsil olunmuşdur. Təsadüfi deyildir ki, o, 1974-cü ildə Nasir adına Beynəlxalq mükafat laureatı adına layiq görülmüşdü. [4] Ötən əsrin 60-70-ci illərində Azərbaycan təsviri sənətində ərəb tematikasının ideya-bədii, məzmun və kolorit etibarılə ən parlaq nümunələrinin yaradılmasında S.Salamzadə yaxından iştirak etmişdir. [5] Onun Misir, İraq və başqa ərəb ölkələrinə etdiyi səfərlər çoxsaylı tablolarda təcəssüm olunan ərəb seriyasının yaranmasına səbəb olmuşdur. Yağlı boya ilə işlənmiş bu əsərlər içərisində mənzərə, tematik və portret janrları üstündür.

Öz yaradıcılığında multikultural dəyərləri vəsf etmiş başqa bir sənətkar Böyükağa Mirzəzadədir. Onun xarici ölkələr seriyasında çəkdiyi bir çox tablolar 50-60-cı illərdə Azərbaycan təsviri sənətində multikultural təfəkkürün yaranması və formalaşması baxımından mühüm əhəmiyyət daşımışdır. Rəssamın Çexoslovakiya seriyası maraq doğurur. O, 1959-cu ildə bu ölkədə yaradıcılıq ezamiyyətində olmuş, "Praqa. Müqəddəs Vit kilsəsi", "Praqada tutqun gün", "Vltavanın sahilində" kimi maraqlı mənzərələr işləmişdi. İstər Çexoslovakiyada olarkən, istərsə də sonrakı

---

[1] Tahir Salahov (Albom). Bakı, "İndiqo", 2008.
[2] Əfəndiyev T.İ. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, "Təhsil", 2011, 391 s.
[3] Tağı Tağıyev. Sərvət (mətnin müəllifi G.Quliyeva). Bakı, "Şərq-Qərb", 2013, 104 s.
[4] http://shamakhi-encyclopedia.az/salamzad%C9%99-salam-%C9%99bdulqasim-oglu/
[5] https://ochagsamara.wordpress.com/tag/salam-salamzad%C9%99/

dövrlərdə rəssam bu səfərin təəssüratı ilə maraqlı mənzərə tabloları işləmişdir. Bu əsərlər mənzərə janrında multikulturalizmin ən maraqlı nümunələrindəndir. Çünki onlarda Azərbaycan rəssamının dost ölkəyə olan sevgisi, ehtiramı aydın əks olunur.

V.Səmədova Azərbaycan incəsənət tarixinə zəngin palitraya malik rəssam kimi daxil olub. Onun milli məişət səhnələrini parlaq boyalarla əks etdirən əsərləri Azərbaycan təsviri sənətinin qızıl fonduna daxildir. Eyni zamanda rəssam portret, mənzərə, məişət janrlarında, gənclik və idman mövzularında yaddaqalan əsərlər yaratmışdır.

V.Səmədovanın xarici tematikada yaratdığı əsas seriya Bolqarıstan seriyasıdır. Haşiyə çıxaraq qeyd edək ki, E.Şahtaxtinskaya ilə müqayisədə V.Səmədovanın bolqar tematikası həm say, həm də janr etibarilə daha genişdir. "Nesebr", "Sozopol", "Tırnovo", "Plovdiv" kimi mənzərələr təbiiliyi, zəngin rəng effektləri ilə seçilir. V.Səmədova mənzərə əsərləri ilə yanaşı, portret və tematik janrlarda da maraqlı lövhələr işləmişdir. Bütün bunlar rəssamın bolqar tematıkasını rəngarəng və canlı edir.

**I-Fəslin ikinci yarımfəsli 80-ci illər – müstəqilik dövründə janr və bədii üslub müxtəlifliyi** adlanır. Adından göründüyü kimi, həmin yarımfəsildə ötən əsrin 80-ci illəri – müstəqillik dövrü əsas tədqiqat mərhələsi kimi müəyyən edilib. Bu dövr multikultural ənənələrin varlığı baxımından maraqlı, əsərlərlə zəngin bir dövrdür. Həmin dövrdə rəssamların yaradıcılığında psixoloji portretə maraq nisbətən azalmış, tematik mahiyyət, məzmun isə əksinə, inkişaf etmişdir. Həmçinin mənzərə janrı, əvvəllərdə olduğu kimi, geniş yayılması ilə diqqəti cəlb edir.

İkinci yarımfəsildə X.Səfərovanın yaradıcılığında xarici tematikadan danışılır. Qeyd olunur ki, xarici tematikasında multikultural məzmunun özünü məhz nədə büruzə verməsini müəyyən etmək mühüm şərtdir.

X.Səfərovanın yaradıcılığında Fransa seriyası mühüm yer tutur. Bu seriyasından olan əksər əsərlərində sakit lirika, nikbin əhvali-ruhiyyə hökm sürür. ""Kavas" kafesi" (1985) əsərində rəssam Parisin sakit, maşınlar keçməyən bir küçəsini təsvir edib. Bu küçədə yerləşən, o qədər də böyük olmayan "Kavas" adlı kafe müəllifin diqqətini cəlb etmiş və o, əsəri bu kafenin adı ilə adlandırmışdır. Əsər X.Səfərovanın dəst-xəttinə uyğun olmayan maraqlı kompozisiya həllinə malikdir. Burada təsvir olunan evlərdə kubizmin təsiri duyulur. Əsər həmçinin Vinsent van Qoqun məşhur "Kafenin gecə terrası" əsəri ilə üslub və kolorit oxşarlığına malikdir. Sanki müəllif əsərin Fransa mövzusu ilə bağlılığını nəzərə alaraq onu öz dəst-xəttinə uyğun gəlməyən, lakin postimpressionizminə xas olan tərzdə işləmişdir.

Parlaq, major xarakterli rənglər silsiləsi müəllifin "Sena sahili" (1998) tablosunda daha da inkişaf etdirilmişdir. Paris xatirələri və eskizlər əsasında yaradılmış bu yağlı boya əsərində X.Səfərova öz bədii üslubunu və rəng duyumunu bütün dolğunluğu, gözəlliyi ilə əks etdirə bilmişdir. Tabloda Paris təbiətin lirik çağı olan payız mövsümündə təsvir edilmişdir. Sena sahili boyunca uzanan bulvardakı ağacların qızılı-sarı yarpaqları ön planda təsvir edilmiş çayın parlaq göy suları ilə lirik-romantik harmoniya yaradır. Səmadakı ağ buludların və ağacların sarı yarpaqlarının əksi Senanın sularında əks olunaraq kompozisiyanı daha cazibədar göstərir. Sözü gedən tablo istər kompozisiya, istərsə də kolorit həlli baxışından X.Səfərovanın Paris mövzusunda yaratdığı ən uğurlu əsərlərdən biridir. Qeyd edək ki, rəssamın eyni adlı başqa bir tablosu da vardır. "Paris xatirələri ilə bağlı əsərlər mövzu baxımından çox rəngarəngdir. Müxtəlif rakurslardan 1998-ci ildə çəkilən iki fərqli "Sena sahili" əsərinin hər birində cəlbedici mənzərə canlanır. Bu əsərlərin hər ikisində qayıqlar, yelkənlər, cərgə ilə əkilmiş ağaclar, xəzan rəngli bitki örtüyü, firuzə rəngli çay, daş körpü kimi görüntülərdən istifadə edilsə də, tablolar məkanın yerləşmə istiqaməti baxımından biri digərindən fərqlənir".[1]

İstedadlı fırça ustası O.Sadıqzadənin yaradıcılığında multikultural məzmun həm rəngkarlıqda, həm də qrafikada təcəssüm olunur. Rəssamın xarici bədii ədəbiyyat nümunələrinə çəkdiyi çoxsaylı illüstrasiyalar qrafikaya, yağlı boya ilə işlədiyi dəzgah və monumental xarakterli əsərləri isə rəngkarlığa aiddir. Bir sıra hallarda O.Sadıqzadənin yaradıcılığındakı multikultural mahiyyət portretlər vasitəsilə öz əksini tapır.

Zənnimizcə, O.Sadıqzadənin rəngkarlıqda multikultural məzmunun daha geniş təcəssüm olunduğu əsərləri onun ötən əsrin 90-cı illərində yaratdığı Azərbaycan və dünya mədəniyyətini əks etdirən seriyadır. Seriya "Nizami və dünya mədəniyyəti" adlanır. Xalqımıza xas olan böyük mədəniyyət, zəngin mənəviyyat bəşər sivilizasıyasınn nailiyyətləri ilə qarşılıqlı surətdə təcəssüm etdirilməklə, multikultural baxışları ifadə edir.

Seriyaya çoxfiqurlu kompozisiyalar daxildir. Maraqlıdır ki, çoxfirurlu olmasına, böyük zəhmət tələb etməsinə baxmayaraq O.Sadıqzadə onları sulu boya ilə deyil, yağlı boya il işləmişdir. Çünki bu kompozisiyalar Nizami muzeyinin bədii tərtibatı kimi düşünülmüşdü. "Rəssam böyük hazırlıq işləri görür, Nizaminin dövrü, o dövrün memarlığı,

---

[1] Xalidə Səfərova. Sərvət (mətnin müəllifi X.Əsədova). Bakı, "Şərq-Qərb", 2013, 104 s.

incəsənəti, geyimləri barədə çoxsaylı material toplayırdı. Bu monumental əsərdə antik və İntibah dövrlərindən başlamış XX əsrə qədərki dahi filosofların, musiqiçilərin, şairlərin, rəssamların 43 fiquru Nizamini əhatə edir”. [1]

Dissertasiyanın **II – fəsli “Qrafika sənətində multikultural tematikanın təzahür formaları”** adlanır. İkinci fəsil də iki yarımfəsli özündə birləşdirir. Birinci yarımfəsil **Mənzərə, məişət və illüstrasiya sahələrində multikultural dəyərlərin təcəssümü** adlandırılır. Fəsildə multukultural məzmunun qrafika sahəsində yaradılmış əsərlər vasitəsilə təcəssüm edilməsi məsələləri ön plana çəkilir. Vurğulanır ki, ötən əsrin ikinci yarısında, xüsusən 60-80-ci illərdə qrafika sahəsində özündə multikultural ənənələr əks etdirən bir çox maraqlı sənət nümunələri yaradılıb. K.Kazımzadə, E.Rzaquliyev, N.Əbdürrəhmanov, B.Mirzəzadə, C.Müfidzadə və başqalarının qrafika növündə yaratdığı əsərlər rəngkarlıq əsərləri ilə yanaşı Azərbaycan təsviri sənətinin zənginləşməsinə öz töhfəsini vermişdir.

Görkəmli fırça ustası Kazım Kazımzadənin bir rəssam kimi fəaliyyətində xarici tematika mühüm rol oynayır. Onun yaradıcılığında ərəb ölkələri üstünlük təşkil edir. Rəssamın həmin mövzudakı yaddaqalan rəsmlərindən biri “Məhəmməd Füzulinin qəbri” adlanır (1973). Əsərdə Kərbəla şəhərinin sxematik görünüşlü, ilk baxışda ərəb memarlığına bənzəməyən binaları, küçələr, küçə ilə hərəkət edən insanlar və s. əks olunur. [2] Sulu boya ilə işlənmiş bu tablo zəngin kolorit effektinə malikdir. Binaların gün tutmayan kölgəli fasadlarının tünd göy siluetləri cənub günəşinin başdan-başa parlaq sarı rəngə boyadığı səma fonunda daha aydın nəzərə çarpır.

Xarici tematikada mənzərə janrının bənzərsiz nümunələrini istedadlı sənətkar, xalq rəssamı Elmira Şahtaxtinskaya yaradıb. Onun sulu boya ilə işlədiyi mənzərələr ötən əsrin 60-70-ci illərində xarici tematika sahəsində ən yaxşı əsərlərlə bir cərgədə qərarlaşmışdır. İsveç, Bolqarıstan və digər ölkələrə etdiyi səfərləri ona zəngin material vermişdir. Lakin B.Mirzəzadə, X.Səfərova və bəzi başqa rəssamlar kimi E.Şahtaxtinskayanın xarici tematikası əsasən mənzərə janrına istinad edir. Rəssamın kağız üzərində quaşla işlədiyi “Stokholm” (1965) mənzərəsinə diqqət yetirək.

---

[1] Oqtay Sadıqzadə. Sərvət (mətnin müəllifi G.Mirzə). Bakı, “Şərq-Qərb”, 2013, s. 48.
[2] Sadıq Şərifzadə, Kazım Kazımzadə. Sərvət (Mətnin müəllifləri T.Əfəndiyev, G.Quliyeva). Bakı, “Şərq-Qərb”, 2013, s. 69.

Əsərdə gözə çarpan ilk cəhət müəllifin sulu boya texnikasına dərindən bələd olmasıdır. Əsər olduqca təbii və koloritli görünüşə malikdir. Rəsmin sol hissəsində şəhərin tarixi hissəsi – bir-birinə sıxılmış qəsrlər, müxtəlif binalar, uca qüllələr görünür. Əks tərəfdə dənizin mavi suları nəzərə çarpır. Müəllif göy rəngin müxtəlif çalarlarından istidadə etməklə buludlu göyün, dalğasız, sakit dənizin olduqca təbii, realist təsir bağışlayan təsvirini yaratmışdır.

E.Şahtaxtinskaya öz dövrünün sözün həqiqi mənasında multukultural dəyərlərə istinad edən sənətkarı idi. Təsadüfi deyil ki, onun müraciət etdiyi qrafik seriyalar xalqlar arasında sülhün, əmin-amanlığın, qarşılıqlı etimad və dostluğun möhkəmləndirilməsinə yönəlmişdi: “Xalqlar, ədavəti unudun”, “Milyonlar, qucaqlaşın!” çağırışı insanları birləşməyə, onların enerjisini quruculuğa, sülhə, etik və mənəvi məcraya yönəltməyə çalışır”. [1]

Mənzərə janrı E.Şahtaxtinskayanın multikultural görüşlərinin yalnız bir hissəsini əks etdirir. Rəssamın “Bütün bəşəriyyətə” adlı qrafik seriyasında təkcə Azərbaycanın deyil, dünyanın bir sıra xalqlarının tanınmış mədəniyyət xadimlərinin obrazları yaradılmışdır: “Elmira Şahtaxtinskaya “Bütün bəşəriyyətə” silsiləsini məhz belə sənətkarlara həsr etmişdir. Bunlar Nizami, Nəvai, Rumi, Şekspir, Puşkin, Bethovendir”. [2]

Multikultural mövzu xalq rəssamı Oqtay Sadıqzadənin qrafik yaradıcılığında daha geniş təmsil olunmuşdur. Bəzən bu mövzunu rəssamların xarici ölkələrə yaradıcılıq ezamiyyətlərinin təəssüratları altında yaradılan əsərlərlə eyniləşdirirlər. Əslində isə bu, belə deyil. Xarici mövzuda işlənmiş hər bir əsəri multikultural əsər kimi dəyərləndirmək olmaz. Eyni zamanda multikultural mövzu xarici səfərlə birbaşa əlaqədar olmaya da bilər. Lakin O.Sadıqzadənin yaratdığı bir çox tablolarda multikultural dəyərlərə vicdanlı münasibət öz həqiqi, ləyaqətli bədii ifadəsini tapır.

O.Sadıqzadə uzun illər Azərbaycan nəşriyyatları ilə əməkdaşlıq etmiş, müxtəlif bədii ədəbiyyat nümunələrinə illüstrasiyalar çəkmişdir. Onun yaratdığı bu əvəzsiz nümunələr milli illüstrasiya sənətimizin ən qiymətli səhifələrini təşkil edir. Rəssamın Nizami, Nəsimi, C.Məmməd-quluzadə, İmran Qasımov və Həsən Seyidbəyli, eləcə də V.Hüqo, Turgenev, Rəşad Nuri Güntəkin və başqalarının povest və romanlarına

---

[1] Elmira Şahtaxtinskaya. Sərvət (mətnin müəllifi G.Mirzə). Bakı, “Şərq-Qərb”, 2013, s. 40.
[2] Yenə orada, s. 40.

çəkdiyi illüstrasiyalar təbiiliyi, canlılığı, yüksək səviyyəli işlənmə xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu illüstrasiyaların böyük əksəriyyəti ötən əsrin 50-70-ci illərində çəkilmişdir.

Multikultural dəyərlərə münasibət baxımından diqqətimizi xarici ölkələri təmsil edən yazıçıların əsərlərinə çəkilmiş illüstrasiyalar daha çox cəlb edir. Əlbəttə, sərbəst mövzulu rəsm əsərlərindən fərqli olaraq bədii illüstrasiya müəyyən bir ədəbi əsərlə bağlı olur və onun ideya-bədii xüsusiyyətlərini, məzmununu, mündəricəsini vizual ifadə vasitələrilə əks etdirir. Rəssam bədii əsərin süjetindən, qayəsindən kənara çıxa bilməz. Bu baxımdan O.Sadıqzadənin illüstrasiyalarında multikultural dəyərlərin təcəssümü ilk baxışda bir qədər qəribə görünə bilər. Lakin məsələyə daha dərindən yanaşdırda bunun təbii bir cəhət olduğu anlaşılır. Yuxarıda qeyd edildiyi kimi, rəssamın illüstrasiyaları V.Hüqo, Turgenev kimi dahi yazıçıların humanizm ideyalarından güc alan əsərlərinə çəkilmişdir.

İstedadlı rəssam C.Müfidzadənin Misir qrafik seriyası xüsusilə böyük maraq doğurur. "Cəmil Müfidzadənin 2006-cı ildə Bakıda sənətsevərlərə təqdim etdiyi "Misir təəssüratları" silsiləsi onun bu vaxta qədər də dünyanın memarlıq möcüzəsi hesab olunan ehramların vətəninə yaradıcılıq səfərinin nəticəsi idi. İki il əvvəl Misirdə olan rəssam geri dönəndən sonra topladığı zəngin təsvir materialını yaddaqalan lövhələrə çevirməyə nail olmuşdu". [1] Bu seriyada rəssamın özünəməxsus qrafik üslubu aydın şəkildə təzahür edir. C.Müfidzadənin yaradıcılıq üslubu üçün neytral ağ fon, rənglərdən az istifadə olunması, kompozisiyaların ağ-qara əsər təəssüratı yaratması xarakterikdir.

C.Müfidzadə məşhur ərəb seriyası ilə yanaşı həm də bundan az məşhur olmayan Monqolustan seriyasının müəllifidir. Rəssam hələ ötən əsrin 80-ci illərinin ortalarında Monqolustanda olmuş, müxtəlif rəsmlər, eskizlər işləmiş, gələcək yaradıcılığı üçün zəngin material toplamışdı. Misir seriyasında olduğu kimi, Monqolustan seriyasında da C.Müfidzadə qrafik texnikaya müraciət etmişdir. Rəssam yaradıcılığı üçün ənənəvi olan üslubda Monqolustan seriyasına aid onlarla yaddaqalan qrafik rəsm yaratmışdır.

C.Müfidzadənin yaradıcılığının kompozisiya əsasını əksər hallarda müxtəlif fraqmentlər təşkil edir. Nəqledicilik və inkişaf edən süjet xətti rəssamın yaradıcılıq manerası üçün o qədər də xarakterik deyil. Bu xüsusiyyəti Misir seriyasında olduğu kimi, Monqolustan seriyasında da

---

[1] Əliyev Z.A. Cizgilərə hopan ömür (Cəmil Müfidzadə). Bakı, "Oskar", 2011, s. 159.

müşahidə etmək olar. Monqolustan seriyasında simvolik xarakterli detallar demək olar ki, bütün rəsmlərdə özünü büruzə verir.

İkinci fəslin “**Multikultural təfəkkürün karikatura janrında əks olunması” -** adlanan ikinci yarımfəslində karikatura sahəsində yaradılmış beynəlxalq məzmunlu əsərlər tədqiqata cəlb edilib. Məlum olduğu kimi, ötən əsrin ortalarından etibarən karikatura sahəsində beynəlxalq irtica qüvvələrini ifşa edən xalqların sülh, əmin-amanlıq, azadlıq arzularını dəstəkləyən bir çox dəyərli karikatura əsəri yaradılmışdır. Bu proses bu gün də davam edir. Yarımfəsildə bütün bunlar əsas elmi problem kimi tədqiqata cəlb olunmuşdur.

XX əsrin 40-cı illərinin sonu - 50-ci illərindən etibarən karikatura janrı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu inkişaf bütövlükdə Azərbaycan təsviri sənətinin tərəqqisinin bir hissəsi olub müharibədən sonrakı həyatın tədricən öz axarına düşməsi, mədəni səviyyənin yüksəlməsi ilə əlaqədar idi. Həmin dövrdə karikaturanın əsas hədəfləri təsərrüfat sahəsindəki nöqsan və pozuntular, həmçinin mədəni gerilik, köhnəpərəstlik və s. idi. Digər tərəfdən beynəlxalq mövzulara da karikatura sənətində geniş yer verilirdi. Zənnimizcə, karikatura sahəsində multikulturalizm təzahürlərindən söz açarkən, ilk növbədə məhz beynəlxalq süjetlərə yer verilməlidir. Çünki dünya ölkələri və xalqlarının məruz qaldığı çətinlikləri sənətdə açıb göstərmək, məzlum xalqlar ilə həmrəylik nümayiş etdirmək həmin dövrdə (əsasən XX əsrin 50-80-ci illərində) Azərbaycan karikatura sənətində multikultural təfəkkürün bariz nümunəsi kimi dəyərləndirilməyə layiqdir.

Nəzərdən keçirilən dövr ərzində Azərbaycan karikaturasında multikulturalizm təmayülləri özünü daha çox aşağıdakı mövzularda əks etdirir:

- Beynəlxalq aləmdə müharibə qızışdırıcılarına qarşı mübarizə;
- Sülhün, əmin-amanlığın, tərki-silahın təbliği;
- Asiya, Afrika və Latın Amerikası xalqları ilə həmrəylik;
- Qarabağ hadisələrinin dünyanın diqqətinə çatdırılması;
- Azərbaycan müstəqilliyinin beynəlxalq miqyasda möhkəmlənməsi.

Qeyd olunan bu mövzular zaman etibarilə bir-birindən seçilir. Əgər birinci üç mövzu əsasən sovet dövrü üçün xarakterikdirsə, dördüncüsü SSRİ-nin süqutu və erkən müstəqillik dövrünə, sonuncusu isə əsasən müasir dövrə aiddir. Buradan aydın görünür ki, hər bir dövrün öz dünyagörüşünə uyğun, o dövr üçün aktual olan xarici tematikası vardır. Əlbəttə, karikatura sahəsində istənilən xarici mövzunu multikulturalizmin

təzahürü kimi qəbul etmək olmaz. Zənnimizcə, multikultural mahiyyət əsasən qlobal təhlükələrin ifşası və dünya xalqları ilə həmrəylik mövzuları üçün daha xarakterikdir. Çünki burada həm bütövlükdə bəşəriyyətin taleyi üçün narahatlıq, həm də ayrı-ayrı xalqlarla dostluq, qardaşlıq həmrəylik ideyaları ifadə olunur. Multikulturalizm həm də humanizmdən qaynaqlanır. Məhz bu səbəbdən multikulturalizmi humanizm ideyalarından təcrid edilmiş halda təsəvvür etmək çətindir. Əks təqdirdə o, özünün əsas dəyərini – insani keyfiyyətini itirərdi. Bu baxımdan qeyd olunan mövzuların məhz multikultural xarakterə malik olması göz qabağındadır. Eyni zamanda Qarabağ və müstəqillik mövzuları ilə bağlı olan bir çox süjetlər də multikultural məzmuna malikdir. Əvvəla, onlarda separatçıların və onların havadarlarının ifşa edilməsi, dünya xalqlarının Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi öz əksini tapır. İkincisi, bu karikaturaların (bu sıraya şarjları da əlavə etmək olar) xeyli hissəsi multikultural dəyərlərin yayıldığı müasir dövrdə işlənmişdir və bilavasitə bu dəyərlərin təbliğinə xidmət edir.

Maraqlıdır ki, V.Ternavski, A.Elçin, P.Şandin, R.Quliyev, Z.Kərimbəyli, Ə.Zeynalov kimi ixtisaslı karikaturaçılarla yanaşı O.Sadıqzadə, S.Şərifzadə, D.Kazımov kimi rəssamlar da karikaturaya müraciət edirdilər. Bu, həmin dövrdə karikaturanın cəmiyyətdə ciddi qəbul edilməsinin, mədəni həyatda tutduğu nüfuzlu mövqeyinin göstəricisi idi. Həmin dövrdə əsasən "Kirpi" jurnalında çap olunan karikaturalar həm beynəlxalq həyatın, həm də ölkənin, respublikanın həyatının güzgüsü kimi səciyyələndirilirdi.

Vsevolod Ternavskinin, Rahib Qədimovun, Adil Elçinin sülh və əmin-amanlıq, müharibə qızışdırıcılarının ifşası, kosmosdan dinc məqsədlərlə istifadə edilməsi kimi mövzularda yaratdıqları karikaturalar (onların bir qismi plakat və şarj xüsusiyyətlərini özündə əks etdirir) xarici tematikanın əsas mövzuları kimi çıxış edirdi. Xalqların öz azadlıqlarını əldə silah müdafiə etməsi mövzusu da, təbii ki, geniş yayılmışdı. Bu baxımdan V.Ternavskinin "Özgə malına göz dikənin gözləri partlar" adlı karikaturası diqqət çəkir. Bu karikaturada 1963-cü il "Karib böhranı" və ondan sonrakı hadisələr, Kubanın öz azadlığını qoruyub saxlaması ideyası əks edilib.

Karikatura janrı Azərbaycan incəsənətində vaxtilə böyük ənənələrə malik olmuşdur. Olduqca fərəhlidir ki, həmin mütərəqqi ənənələr müasirlik müstəvisində bu gün də davam edir. Eyni zamanda multikultural məzmun da hifz olunub saxlanılmışdır. Əlbəttə, ötən əsrin 50-80-ci illəri ilə müqayisədə onun məzmunu xeyli dəyişmişdir. Lakin multikultural dəyərlərə istinad edən ümumi prinsiplər yaşayır və şübhəsiz ki, gələcəkdə

də yaşamaqda davam edəcəkdir. Bu baxımdan karikatura sənətində multikulturalizm ideyalarının təcəssümünü perspektivli saymaq olar.

Müasir dövrdə beynəlxalq mövzularda maraqlı, həm güldürən, həm də düşündürən karikaturalarla çıxış edən istedadlı Azərbaycan rəssamlarından biri də Bayram Hacızadədir. Onun daha çox "Sözsüz" adı ilə təqdim olunan karikatura nümunələri müasir beynəlxalq aləmin ən ağrılı problemlərini gülüş hədəfinə alır. Rəssamın bir çox əsərləri Çin (2007), Serbiya (2007), Türkiyə (2015) Fransa (2016), Ukrayna (2016) və s. beynəlxalq karikatura müsabiqələrində mükafata layiq görülmüşdür.

Dissertasiya işinin III - fəsli **"Heykəltəraşlıqda multikulturalizm ideyalarının təzahürü"** adlanır. Bu fəsildə multikultural dəyərlərin təcəssümü heykəltəraşlıq sənəti kontekstində öz təcəssümünü tapır. Fəsil iki yarımfəsli birləşdirir. Bunlardan birincisində klassik mərhələ (XX əsrin ikinci yarısı), ikincisində isə müstəqillik dövrü heykəltəraşlığı nəzərdən keçirilir.

Üçüncü fəslin birinci yarımfəsli "**Multikultural ənənənin formalaşması və inkişafı"** adını almışdır. Bu yarımfəsildə Azərbaycan plastika sənətində multikultural məzmunun təşəkkül və inkişaf mərhələləri xarakterizə edilir.

Ötən əsrin 50-70-ci illəri rəngkarlıq və qrafikada olduğu kimi, heykəltəraşlıqda da xarici tematikanın və ona istinad edən multikultural dəst-xəttin inkişaf etdiyi dövrdür. Əlbəttə, müəyyən səbəblərə görə heykəltəraşlıqda multikulturalizm rəssamlıqda olduğu qədər yayıla bilməmişdir. Monumental əsərin yaradılmasının fiziki çətinlikləri, onların sayca xeyli az olması buna təsir göstərmişdir. Lakin bir çox heykəltəraşlar dəzgah heykəltəraşlığında multikultural düşüncənin bədii təzahür forması kimi dəyərləndirilə biləcək olduqca maraqlı, ifadəli obrazlar yaratmışlar. Adətən bunlar xarici ölkələrdə yaşayan sadə insanların – fəhlə, kəndli, patriot, balıqçı, neftçi, idmançı, tələbə qız və ya oğlan portretləridir ki, bunlarda da milli xarakter və milli özünəməxsusluq daha qabarıq ifadə olunmuşdur. Bir sıra hallarda heykəltəraşlarımız xarici ölkələrin tanınmış dövlət və hökumət xadimlərinin, elm və sənət adamlarının obrazlarını əbədiləşdirmişlər. 50-60-cı illərdə F.Əbdürrəhmanov, C.Qaryağdı, M.Mirqasımov, T.Məmmədov, Ö.Eldarov, E.Hüseynova, İ.Zeynalov və başqa tanınmış heykəltəraşların yaradıcılığında xarici tematika daha böyük çəkiyə malik idi. Xarici tematikada yaradılmış əsərlərin böyük qismi dəzgah heykəltəraşlığına, yalnız kiçik bir qismi isə monumental heykəltəraşlığa aiddir.

Azərbaycan heykəltəraşlığında multikultural ideyalar istedadlı tişə ustası, xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığında geniş təmsil olunmuşdur. F.Əbdürrəhmanov elə sənətkarlardandır ki, hələ sağlığında klassik sənətkar kimi hər kəs tərəfindən qəbul edilirdi. Təbii ki, belə bir sənətkarın yaradıcılığı zəngin və hərtərəfli olmaqla yanaşı, həm də humanist məzmunlu multikultural təfəkkür tərzini əks etdirməli idi. Fuad müəllimin yaşayıb-yaratdığı dövrdə multikulturalizm sözü işlənməsə də, onun yaradıcılığında multikultural dəst-xətt və məzmun olduqca aydın nəzərə çarpır.

F.Əbdürəhmanov tanınmış portret ustası olaraq bir sıra xarici dövlət və mədəniyyət xadimlərinin maraqlı, ifadəli obrazlarını yaratmışdır. Görkəmli tişə ustasının ötən əsrin 50-70-ci illərində yaratdığı bəzi surətləri xatırlaya bilərik. Bu sırada Monqolustanın tanınmış dövlət və hökumət xadimləri olan Suxe-Batorun və marşal X.Çoybalsanın büstləri daha çox maraq doğurur (hər ikisi 1954). Əgər Nizami obrazını və onun yaradıcılığında müxtəlif xalqların nümayəndələrinin surətlərini nəzərə almasaq, Monqolustanın dövlət xadimlərinin heykəlləri F.Əbdürrəhmanovun multikultural kontekstdə işlədiyi ilk əsərlərdir. Eyni zamanda Monqolustan dövlət xadimlərinin büstləri onun xarici tematika sahəsində birinci işləridir.

Ümumiyyətlə, F.Əbdürrəhmanovun yaradıcılığında multikultural mövzu zaman və məkan etibarilə nisbətən dəqiq bölgüyə malikdir. Belə ki, 40-cı illər onun yaradıcılığında Nizami və qəhrəmanları, 50-ci illər monqol, 60-cı illər tacik, 70-ci illər özbək dövrü kimi səciyyələndirilə bilər. Kompozisiya və bədii baxımdan bu dövrlərin hər birinin öz xarakterik cizgiləri vardır. Əgər Suxe-Batorun və Çoybalsanın büstlərində klassik heykəltəraşlıq kanonları "sərt üslub"a xas olan cəhətlərlə vəhdətdə özünü büruzə verirsə, tacik və özbək seriyasında tamamilə başqa bədii üslub xüsusiyyətlərinə rast gəlirik.

Orta Asiya seriyasında F.Əbdürrəhmanovun ilk monumental işi ölməz fars-tacik şairi Rudəkinin (858-941) monumental obrazıdır (1963). Şübhəsiz ki, bu heykəlin yaradılmasında Nizami obrazının müəyyən təsiri olmuşdur. Maraqlıdır ki, sakit, statik görünüşlü Nizamiyə nisbətən Rudəkinin obrazı daha mütəhərrik xarakter daşıyır. Azərbaycanlı sənətkar qardaş tacik xalqının böyük şair övladının plastik obrazını tükənməz həvəs və ilhamla işləmişdir. Nizami obrazı üzərində fəaliyyətini bir daha xatırlayan və ondan yaradıcılqla istifadə edən heykəltəraş fars-tacik şairi Rudəkinin obrazının psixologizmlərlə zəngin və daha ekspressiv alınmasına nail oldu. Həqiqətən də, Nizami ilə müqayisədə Rudəki daha emosional və

ekspressiv təsir bağışlayır. Heykəltəraş hər iki surətin şəxsi keyfiyyətlərini onların plastik obrazlarında düzgün əks etdirə bilmişdir. [1]

İstedadlı tişə ustası Mirəli Mirqasımovun xarici tematikaya aid bir əsərinə diqqət yetirək. "Azadlıq" adlanan, bürüncdən hazırlanmış bu emosional, mütəhərrik kompozisiyada zəncirini qıran, müstəmləkə buxovlarından azad olan mətin surətli gənc afrikalı təsvir olunmuşdur. Həm ölçü, həm də ideya-bədii keyfiyyətlərinə görə müəllifin digər iki əsərindən xeyli üstün olan bu kompozisiya dövrün qlobal xarakterli siyasi hadisəsinə - Afrika qitəsinin müstəmləkəçilik zülmündən azad olmasına həsr edilib. Həmin illərdə bu mövzu sovet cəmiyyətində cox populyar idi. O dövrdə SSRİ yenicə müstəqillik əldə etmiş Afrika dövlətləri ilə dostluq etməklə orada kommunizm ideyalarını yaymağa, qara qitədə özünə ideoloji dayaq yaratmağa çalışırdı və müəyyən dərəcədə buna müvəffəq olmuşdu.

"Azadlıq" kompozisiyasında təsvir olunan mətin afrikalı surəti əzəmətli görkəmi, qətiyyətli hərəkəti ilə diqqət çəkir. O, ayaqlarını geniş açaraq sanki kəskin bir hərəkətlə biləklərindəki buxovları qırmışdır. Kəskin hərəkətdən afrikalının əlləri arxaya getmiş, qırılmış zəncir isə onun ətrafinda sanki havada süzərək hələ yerə düşməyə macal tapmamışdır. Heykəltəraş kompozisiyanı belə çevik, mütəhərrik formada həll etməklə ona emosional dinamika, canlı hərəkət effekti daxil etmişdir. Gəncin inamlı baxışları, mətin duruşu onun azadlıq istəyinin ciddi, qətiyyətli, dönməz olmasından xəbər verir.

Dissertasiyanın üçüncü fəslinin sonuncu yarımfəsli "**Heykəltəraşlıqda multikulturalizm və müasirlik: milli və transmilli plastika nümunələrinin təcəssümü**" adlanır. Burada müstəqillik dövründə Azərbaycan plastik sənətində multikultural tematika özünəməxsus tərzdə işıqlandırılır.

Qeyd olunduğu kimi, ölkəmiz 26 ildən çoxdur ki, öz müstəqilliyini bərpa etmişdir. bu müddət ərzində respublikanın ictimai-siyasi, mədəni həyatında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər heykəltəraşlıq sahəsində xüsusilə aydın nəzərə çarpır. Belə ki, müstəqillik dövründə dünyanın bir çox tanınmış mədəniyyət, elm və dövlət xadimlərinə ölkəmizdə heykəllər qoyulmuşdur. Eyni zamanda Azərbaycan heykəltəraşlarının yaratdığı əsərlər dünyanın müxtəlif şəhərlərində ucaldılmışdır. Bu xüsusiyyətlər heykəltəraşlıq sahəsində müasir multikultural dəyərləri özündə ehtiva edir.

---

[1]http://senet.az/heyk%C9%99lt%C9%99rasligimizin-banisi-fuad-%C9%99bdurr%C9%99hmanov/

Son dövrlərdə dünyanın tanınmış şəxsiyyətlərinin Bakıda ucaldılmış abidələrindən A.S.Puşkin, T.Q.Şevçenko, Nəvai, N.Tesla, Motsart, Atatürk və başqalarının heykəllərini göstərmək olar. Bu heykəllər Azərbaycanla başqa ölkələrin dostluq simvolu olmaqla yanaşı, həm də ölkəmizin multikultural dəyərlərə hörmətlə yanaşmasının ifadəçisidir.

Bakının mərkəzində, Abşeron mehmanxanası yaxınlığında ucaldılmış Puşkin heykəli (2002; müəllif Y.Orexov) bu sahədə yaradılmış ilk nümunələrdən biridir. Tuncdan tökülmüş heykəl mərmərlə üzlənmiş postament üzərində qoyulmuşdur. Ayaq üstə duran böyük rus şairinin qayğılı siması, ümumi görünüşü, başındaki silindir olduqca təbii, həm də poetik təsir bağışlayır.

Müasir heykəltəraşlıqda özündə multikultural dəyərlər ehtiva edən başqa bir sahə isə azərbaycanlı heykəltəraşların xaricdə ucaltdıqları heykəllərdən ibarətdir. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin Sankt-Peterburq, Pekin, Roma, Daşkənd və başqa şəhərlərdə abidələri yaradılmışdır. Şairin xarici ölkələrdə qoyulmuş ilk heykəllərindən biri Sankt-Peterburq şəhərindədir. Abidə 2002-ci ildə açılmışdır (müəllif C.Babayev). Şairin poetik obrazı olduqca maraqlı kompozisiya həllinə malikdir. Onun ətrafında Şərq mədəniyyətindən qaynaqlanan bədii elementlər, atributlar vardır. kompozisiyanın üzərindən keçən iri çatmatağ əsərin orijinallığını daha da artırır.

Müasir Azərbaycan heykəltəraşlığında ulu öndər Heydər Əliyevin plastik obrazı aktual mövzulardan biri kimi dəyərləndirilir. Onun həm respublikamızda, həm də xaricdə xeyli sayda heykəli ucalmaqdadır. Bu heykəllər Azərbaycan mədəniyyətinin təbliğində mühüm rol oynayır. Ümumiyyətlə, heykəltəraşlıqda Heydər Əliyev mövzusu müasir Azərbaycan mədəniyyətində multikulturalizm ideyalarının canlı ifadəsi kimi qəbul edilə bilər və qəbul edilir. Çünki o, müasir Azərbaycanın qurucusu və memarıdır. Bu gün Azərbaycanda dövlət siyasəti kimi qəbul edilən multikulturalizm ideyaları məhz təməli ulu öndər tərəfindən qoyulmuş dövlətçilik prinsipləri üzərində bərqərardır.

Ulu öndərin İstanbul, Ulyanovsk, Həştərxan, Kiyev, Belqrad kimi şəhərlərdə monumental abidələri ucalır. Əsasən azərbaycanlı heykəltəraşlar tərəfindən düzəldilmiş bu möhtəşəm sənət nümunələri respublikamızla həmin ölkələr, şəhərlər arasında dostluğun canlı simvoluna çevrilmişdir.

Heydər Əliyevin diqqəti cəlb edən abidələrindən biri də onun Gürcüstanın paytaxtı Tbilisi şəhərinin mərkəzi parklarından birində qoyulmuş büstüdür (heykəltəraş N.Əliyev). Tunc büst mərmərlə üzlənmiş çoxüzlü altlıq üzərində qoyulmuşdur. Ulu öndərin canlı, ifadəli baxışları

onun xarakterini çox dolğun ifadə edir. Heykəl iki qonşu respublika arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin canlı simvoluna çevrilmişdir.

**Nəticədə** Dissertasiyada Azərbaycan təsviri sənətində multikulturalizm xüsusiyyətləri ardıcıl surətdə nəzərdən keçirilmiş, qiymətləndirilərək təhlil edilmişdir. Bununla da aşağıda qeyd olunan əsas nəticələrə gəlinmişdir:

- Azərbaycan təsviri sənətində multikulturalizm ənənələri qədim köklərə malikdir. Lakin problemin qoyuluşuna daha konkret yanaşıldıqda, multikultural dəyərlərin XX əsrin ortalarından etibarən təsviri sənətdə daha geniş və ardıcıl yayılması qənaətinə gəlmək olar;
- Multikulturalizm ilə xarici tematika arasında şübhəsiz ki, müəyyən əlaqələr vardır. Lakin xarici mövzuda çəkilmiş hər bir rəssamlıq əsərini multikultural dəyərlərin təzahürü kimi qiymətləndirmək olmaz. Xarici mövzuda işlənmiş rəsm əsərinin multikultural məzmun kəsb etməsi üçün onda təsvirin milli xarakteri, milli simvolika və atributlar əhatəli təsvir edilməli, başlıcası isə, müəllifin bu bədii elementlərə səmimi münasibəti, sevgisi və etimadı öz ifadəsini tapmalıdır. Yalnız bu halda əsəri tam mənada multikultural məzmuna malik əsər kimi qiymətləndirmək olar;
- Təsviri sənət əsərinin multikultural məzmun kəsb etməsi üçün növ, janr və tematika məhdudiyyəti yoxdur. İstənilən növ, janr və mövzuda multikultural dəyərlər əks etdirən əsərlər yaratmaq olar. Azərbaycan rəssamlarının yaradıcılığında bu prinsipi aydın görüb dərk etmək mümkündür;
- Azərbaycan təsviri sənətində, xüsusən rəngkarlıq və qrafikada multikultural dəyərlərdən bəhrələnən əsərlərin yaradılması daha çox XX əsrin ortalarına və ikinci yarısına aiddir. Müstəqillik illərində multikulturalizm ölkəmizin ictimai həyatında geniş yayılmışdır. Müasir təsviri sənətdə o, çoxsaylı əsərlərlə təmsil olunub. Bu, şübhəsiz ki, zəmanəmizdə ictimai-siyasi hadisələrin mədəni həyata aktiv təsiri ilə əlaqədardır;
- Lakin xarici tematikanın aktuallığını itirməsi, ezamiyyələrin olmaması təsviri sənətdə multikulturalizm təmayüllərinin itməsi kimi qəbul edilə bilməz. Bir çox Azərbaycan rəssam və heykəltəraşının (O.Sadıqzadə, S.Məmmədov, A.Sadıqzadə, N.Əliyev, G.Babayev, E.Zeynalov və b.) yaradıcılığının xaricdə geniş populyarlıq qazanması məhz müstəqillik dövrünün imkanları sayəsində mümkün olmuşdur;

- Müasir dövrdə təsviri sənətdə multikulturalizm ötən əsrlə müqayisədə xeyli dəyişmiş, müasir xüsusiyyətlər kəsb etmişdir;
- Təsviri sənətdə multikulturalizm Azərbaycan dövlətinin siyasətini bədii vasitələrlə əks etdirməklə onun maraqlarına xidmət edir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin nəşr edilmiş aşağıdakı məqalələrində öz əksini tapıb:**

1. Azərbaycan təsviri sənətində xarici tematika // (ARMTN). Azərbaycan xalça muzeyi: Təsviri və dekorativ tətbiqi sənət məsələləri № 20, 2017.

2. Ötən əsrin 50-70-ci illərində Azərbaycan rəssamlarının yaradıcılığında xarici tematika // AMEA Mİİ İncəsənət və Mədəniyyət Problemləri (Beynəlxalq elmi jurnal), №1 (59), 2017, s. 106-114.

3. Azərbaycan rəssamlarının yaradıcılığında islam ölkələri ("İslam incəsənəti XXI əsrdə: Ənənə və müasirlik" mövzusunda Beynəlxalq elmi konfransın materialları) // AMEA Mİİ İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal) № 3, (61), 2017, s. 96-104.

4. Multikultural təfəkkürün karikatura janrında təcəssümü // (ADMİU). Mədəniyyət dünyası XXXIV buraxılış. Bakı, 2017, s. 212-217.

5. Мультикультурализм в творчестве азербайджанских художников // Международный научный журнал «Поиск» (Республика Казахстан) (Kazağıstan Respublikası, "İzdenis" Xalıkaralık Ğılımi Jurnal-Kosıması), № 1(1), 2018, s.54-57.

6. Ötən əsrin 50-70-ci illərində Azərbaycan heykəltəraşlığında multikulturalizim ideyalarının təzahürü // BXA, Sənət dünyası (Beynəlxalq elmi nəzəri jurnal), № 1(4) 2018, s. 78-82.

7. Fuad Əbdürrəhmanovun xarici tematikası multikulturalizm kontekstində // AMEA Mİİ İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal) № 2, (64), 2018, s. 77-85.

8. Зарубежная тематика в творчестве Таира Салахова (постсоветский период) // «Традиционная и современная культура: История, актуальное положение и перспективы» (VIII Международная научно-практическая конференция) Прага, 2018 (nəşrdədir).

*Sevinj Ismayil gyzy Valiyeva*

**Multiculturalism in the fine arts of Azerbaijan**

**SUMMARY**

The dissertation compiles of an introduction, three chapters, six sections, conclusion, a list of references and an appendix.

In the introduction, the relevance of the topic under study is determined, scientific novelty, purpose and tasks, methodology, practical significance of research are determined, information is given on level of the problem study, on the volume and approbation of the dissertation.

**Chapter I- Foreign themes in painting and its multicultural character** consists of two sections, in which the objects of research are the picturesque works of Azerbaijani artists. It is noted that these works reflect a multicultural theme, mainly in the context of foreign subjects. This theme can be clearly seen in M. Abdullayev, T. Salahov, B. Mirzazadeh, N. Kasumov, V. Samedova's a number of works devoted to the life of foreign countries. In the 80's and 90's, as well as in the period of independence, Azerbaijani artists create new works that also reflect the ideas of multiculturalism. These ideas are manifested in some works of such paramount artists as Kh. Safarova, O. Sadigzadeh, Ch. Farzaliyev, M.. Zeynalov, A. Sadigzadeh, E. Qurbanov, I. Mammadov and others.

**Chapter II- The forms of manifestation of multicultural themes in the schedule** also consists of two sections. In these sections the subject of research are Azerbaijani artists' graphic works on the topic of multiculturalism. The most part of these works devoted to foreign subjects. T.Tagiyev and S.Sharifzadeh's Arab series, E.Shahtakhtinskaya's Bulgarian series painted with water colors attract attention. E.Rzakuliyeva's foreign themes (series "According to Mexico", "On Japan", etc.), graphic compositions by J. Moufidzadeh, dedicated to Egypt, Mongolia and other countries are also interesting.

**Chapter III- Manifestations of the ideas of multiculturalism in sculpture** is devoted to a comparative analysis of the sculptural works of Azerbaijani sculptors, whose themes reflect the features of multicultural thinking. The works of outstanding classics of Azerbaijan sculpture like F.Abdurahmanov, T. Mamedov, M.Mirkasumov, O.Eldarov, H.Abdullaeva and others are analyzed. In the second section are analyzed works of modernity, erected by foreign authors in Azerbaijan and Azerbaijani sculptors abroad.

**In conclusion** essentials of the research are summarized.

*Севиндж Исмаил гызы Велиева*

**Мультикультурализм в изобразительном искусстве Азербайджана**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, трех глав, шести разделов, заключения, списка использованной литературы и приложения.

**Во введении** обусловлена актуальность изучаемой темы, определены научная новизна, цель и задачи, методология, практическая значимость исследования, дана информация о степени изученности проблемы, об объеме и апробации диссертации.

**I – Глава – Зарубежная тематика в живописи и ее мультикультурный характер** – состоит из двух разделов, в которых объектом исследования являются живописные работы азербайджанских художников. Отмечается, что в этих работах отражена мультикультурная тематика, в основном в контексте зарубежной тематики. Эта тематика четко прослеживается в ряде работ М.Абдуллаева, Т.Салахова, Б.Мирзазаде, Н.Касумова, В.Самедовой, О.Садыгзаде, Ч.Фарзалиева, М.Зейналова, А.Садыгзаде, Э.Курбанова, И.Мамедова и других художников.

**II – Глава – Формы проявления мультикультурной тематики в графике –** также состоит из двух разделов. В них предметом исследования являются графические работы азербайджанских художников на тему мультикультурализма. По большей части это работы, посвященные зарубежной тематике. Привлекают внимание арабская серия Т.Тагиева и С.Шарифзаде, болгарская серия Э.Шахтахтинской, написанные водными красками, графическая серия Т.Салахова. Интересны также зарубежная тематика Э.Рзакулиева (серии «По Мексике», «По Японии» и др.), графические композиции Дж.Муфидзаде, посвященные Египту, Монголии и другим странам. **III – Глава – Проявления идей мультикультурализма в скульптуре** – посвящена сравнительному анализу скульптурных произведений азербайджанских скульпторов, в тематике которых отражены особенности мультикультурного мышления. Анализируются произведения известных классиков скульптуры Азербайджана – Ф.Абдуррахманова, Т.Мамедова, М.Миркасумова, О.Эльдарова, Х.Абдуллаевой и других. Во втором разделе анализируются произведения современности – работы, воздвигнутые зарубежными авторами в Азербайджане и азербайджанскими скульпторами за границей.

**В заключении** подводятся итоги исследования.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА**

***На правах рукописи***

**СЕВИНДЖ ИСМАИЛ гызы ВЕЛИЕВА**

# МУЛЬТИКУЛЬТУРАЛИЗМ В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА

**Специальность: 6215.01 – Изобразительное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии в области искусствоведения**

**БАКУ - 2018**